**Orxan Usubaliyev**
*AMEA-nın M. Füzuli adına Əlyazmalar institutunun doktorantı*

# AZƏRBAYCANDA HUMANİTAR ELMLƏR ÜZRƏ KİTAB NƏŞRİ (2000-2020-ci illər)

*Məqalədə Azərbaycanda humanitar elmlər üzrə kitab nəşrinin yaranması, formalaşması və 2000-2020-ci illər üzrə inkişafı göstərilmişdir. Həmçinin məqalədə kitab və kitabçılıq işinin forma, məzmun və quruluş baxımından ümumu təhlili də qeyd edilmişdir.*

***Açar sözlər:*** humanitar elmlər, kitab nəşri, kitabın tipologiyası

**Giriş.** Müasir dövrdə kitab insan fəaliyyətinin ümumilikdə bütün elm sahələrinə (eləcə də humanitar elmlər) daxil olub və müxtəlif fəaliyyət sahələrinin inkişafında həlledici rol oynayır. Belə bir şəraitdə kitabın istehsalı, təbliği və yayılması məsələləri elmi problemə çevrilir və vacib bir elm sahəsi kimi inkişaf edir. Məhz bu, sözün geniş anlamında elmdə kitabçılıq işinin tərkib hissələri sayılır və bu tərkib hissələri inkişaf etdikcə bu elm sahələrində əldə edilən uğur və nailiyyətlərin öyrənilməsi, elmi tədqiqata cəlb edilməsi zərurətini meydana çıxarır. Bu da məhz yeni bir elm istiqamətin, yeni bilik sahəsinin inkişafına təkan verir. Bu baxımdan, yeni elmi istiqamət kitabşünaslıq elmi adlanır. Azərbaycanda kitab və kitabçılıq işinin tarixinin qədim dövrə malik olmasına baxmayaraq dünya miqyasında kitabşünaslıq bilikləri və elmi prinsiplər XVII əsrin sonu, XVIII əsrin əvvəllərində formalaşıb. Məhz bu tarixi dövrü əsas götürdükdə kitabşünaslıq elminin 300 ildən çox olan yaranma tarixi mövcuddur. Bu tarixi dövr ərzində kitab və kitabçılıq işi forma, məzmun, quruluş baxımından əsaslı şəkildə dəyişib və insanın elmi-istehsalat fəaliyyətində geniş şəkildə iştirak etməyə başlayıb. Eyni zamanda dünyanın bir sıra ölkələrində kitab və kitabçılıq işi haqqında kompleks elm olan kitabşünaslıq bir elm sahəsi kimi elmi tədqiqata cəlb edilib. Yəni kitab və kitabçılıq işi, onun elmi mahiyyəti, məzmunu və quruluşu insan fəaliyyətində yeni öyrənilməyə başlanıb. Kitabşünaslıq mühüm bir elm sahəsi kimi həm elmi tədqiqat sahəsinə çevrilib, həm də əlaqədar tədris müəssisələrində tədris olunmağa başlanıb. Beləliklə, kitabşünaslıq elmi ilə bağlı həm ali məktəblər, universitetlər, həm də elmi-tədqiqat inisitutları, başqa sözlə, kitab və kitabçılıq işini öyrənən elmi-tədqiqat müəssisələri meydana gəlib və inkişaf etmişdir. Bu cür elmi-tədqiqat müəssisələri Avropanın bir sıra qabaqcıl ölkələrində, Rusiyada indi də geniş tərkibdə fəaliyyət göstərməkdədir. Qeyd etdiyim kimi, kitabşünaslıq biliklərinin inkişafı kitabşünaslıq elmi sahəsinə dair elmi-tədqiqat fəaliyyəti ilə bərabər kadr hazırlığını da tələb edir [4, 101-104]. Belə mühüm bir faktı qeyd edim ki, 1991-1992-ci il tədris proqramında Bakı Dövlət Universitetində kitab və kitabçılıq işi üzrə ali təhsilli kadrların hazırlanmasına başlanmışdır. Bu kadrların



hazırlanması və dərs saatlarının artırılması 1993-cü ildən fəaliyyət göstərən "Kitabşünaslıq və nəşriyyat işi" kafedrasının yaranması və fəaliyyət göstərməsi üçün mühüm əsas olmuşdur. Məhz bu kafedranın yaranması, uğurlu elmi fəaliyyəti kitab və kitabçılıq işi sahəsində elmi-pedaqoji kadrların hazırlanmasında da müstəsna rol oynamışdır.

Müstəqil dövlətimizin yaranması və müasir dövrün tələbləri kitab və kitabçılıq işinin inkişafına müsbət təsir göstərmişdir. Müstəqillik şəraiti kitab nəşrinin genişlənməsinə, nəşriyyat sisteminin yaranmasına və inkişafına əsaslı təsir göstərmiş və hal-hazırda da göstərməkdədir. Çünki müasir dövrümüzdə ümummilli lider Heydər Əliyevin layiqli varisi və davamçısı Prezident İlham Əliyev cənabları ölkəmizdə bütün sahələrin, elmin (eləcə də humanitar elmlərin), mədəniyyətin, iqtisadiyyatın inkişafına kömək, diqqət göstərir və bu da təbii ki, öz müsbət nəticələrini göstərməkdədir. Prezident İlham Əliyevin ölkəmizdə kitab, kitabxana, nəşriyyat, kitab mədəniyyəti və s. sahələrin inkişafında da xidmətləri xeyli çoxdur. Məhz bu şəxsiyyətin xüsusi qayğısı nəticəsində ölkəmizdə 10 mindən çox kitabxana, 400-ə dək dövlət, özəl nəşriyyatlar, 1000-ə qədər qəzet və jurnallar öz fəaliyyətlərini daha da genişləndirmıkdədirlər. Ölkəmizdə yaranan belə bir şərait insanın mənəvi cəhətdən formalaşmasına, Azərbaycançılıq ideologiyasının bərqərar olmasına, ədəbiyyat, incəsənət və mədəniyyətdə böyük və mühüm-əhəmiyyətli nailiyyətlərin əldə olunmasına imkan verir. Bir sözlə, kitab mədəniyyəti, kitab istehsalı və nəşri, çap sənətinin inkişafı ölkə başçısının fəaliyyət sferasında xüsusi yer tutur. Bu mənada 2004-cü ildə "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Prezidentin sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Məhz bu sərəncamla əlaqədar latın qrafikalı nəşrlər hesabına ölkəmizdə kitab və kitabçılıq işi inkişaf edib, kitabxanaların fondu çap edilən yeni müxtəlif elm sahələrinə dair ədəbiyyatlarla zənginləşibdir. Ölkə başçımızın sərəncamına əsasən, son illərdə 400 adda 10 milyon nüsxədən çox müxtəlif elm sahələrinə dair (eləcə də humanitar elmlər üzrə) kitab nəşr edilərək ölkəmizin kitabxanalarına hədiyyə olunmuşdur. Kitab nəşrinin də davamlı inkişafının daim diqqət mərkəzində saxlanılması, kitab və kitabçılıq işinin bir çox sahələrinin inkişafı ilə bağlı çox mühüm-əhəmiyyətli sərəncamlar kitab nəşri işini, kitab mədəniyyətini, ümumiyyətlə, ədəbiyyat və incəsənətimizi, zəngin mədəniyyətimizi müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirməyə əsaslı təsir göstərmişdir. Müstəqillik şəraitində ölkəmizdə mövcud olan dövlət, özəl, idarə və müəssisə nəşriyyatlarının fəaliyyətləri üçün hər cür şərait yaranmışdır. Bunun nəticəsidir ki, indi müstəqil respublikamızda fəaliyyət göstərən nəşriyyat sistemi kitabın istehsalı, nəşri, tərtibatında, məzmun və elmi səviyyəsində, həmçinin, miqdarında və s. nailiyyətləri ilə özünü büruzə verir. Yalnız belə bir faktı qeyd etmək kifayət edər ki, müasir dövrdə respublikamızda müxtəlif elm və bilik sahələrinə üzrə, həmçinin humanitar elmlər üzrə müxtəlif növlərdə və tiplərdə 4 minə yaxın adda kitab və kitabça çapdan buraxılır. Bu da öz növbəsində kitab mədəniyyətinin ölkəmizdə sürətlə inkişaf etdiyini göstərməklə bərabər, insan fəaliy-

yətində xüsusi əhəmiyyət kəsb edən oxu və mütaliənin keyfiyyətinin, səmərəliliyinin yüksəldilməsinə müəyyən mənada təsir göstərir. Beləliklə, kitab mədəniyyəti, kitab nəşri, kitab və kitabçılıq işinin inkişafı, bütövlükdə Azərbaycan mədəniyyətinin inkişafına əsaslı şəkildə təsir göstərir [1, 85-88].

**Əsas hissə.** Ümumiyyətlə, kitab mədəniyyəti kontekstində humanitar elmlər üzrə milli kitab nəşrindən söhbət gedirsə, bu istiqamətdə kitabın tipologiyasının ümumi məzmuna aydınlıq gətirmək vacib məsələdir. Kitablar hər biri məqsəd və oxucu isriqamətinə görə bir neçə tipi özündə birləşdirir. Kitabın tipologiyası dedikdə, ümumi məqsəd istiqamətində birləşmiş kitabların məcmusu başa düşülür. Kitabın tipləri: elmi, tədris, istehsalat-texniki, soraq-məlumat, elmi kütləvi kitablardır. Kitablar özləri də nəşr tiplərinə bölünür: ayrı-ayrı əsərlər, seçilmiş əsərlər, çoxcildli əsərlər, tam əsərlər külliyyatı və akademik nəşrlər, mövzu və məcmuələr, monoqrafiyalardır. Bunlar hamısı məhz məqsəd və oxucu təminatına görə bir-birindən fərqlənir. Müasir dövrdə elmlər arasında gedən inteqrasiya mövzu, məcmuə, monoqrafiya və dərsliklərin yaranmasına təkan vermişdir. Kitab tipologiyasının predmeti və metodun spesifikasını aydınlaşdırarkən biz müvafiq dilin, terminlər sisteminin, əsas kateqoriyalarının formaiaşdırılması məcburiyyəti ilə rastlaşırıq. Beləliklə də, elmin mövqeyinin izahından başlamaq vacibdir. Biz elmi “kitab tipologiyası”, yaxud kitabşünaslıq üçün ənənəvi olan terminlərin formalaşdırılması prinsipindən istifadə edərək ”bibliotipologiya” adlandırmağa qərar verilmişdir. Kitab tipologiyasının obyekti- kitab, kitab işi və kitabşünaslığın problematika müxtəlifliyidir. Onun predmeti, yəni tədqiqat aspektinin məzmunu isə kitabın sistemləşdirilməsi, kitabın bir sistem kimi onun istehsalı, yayılması və istifadəsi prosesində formalaşması qanunauyğunluqlarını aydınlaşdırılmasıdır. Kitab tipologiyası (bibliotipologiya)- kitabşünaslıqda digər idrak obyektlərinin sistemləşdirilməsi kitab tipologiyasının əsas kateqoriyası kimi səciyyələndirilməlidir [2, 23-28]. Müasir kitabşünaslıqda istifadə edilən digər anlayışlar isə (klassifikasiya, tipizasiya, qruplaşdırma və s.) kitab tipologiyasında xüsusi anlayışlardır. Kitab sistemləşdirilməsinin müxtəlif məsələlərinin həlletmə vasitəsi kimi tipoloji metodun əsasını sxem, cədvəl, maket, konstruksiyalar formasında real surətdə mövcud olan tipoloji modelləşdirmə təşkil edir. Həmçinin, kitab tipologiyasının baza metodu kimi tipoloji modelləşdirmə, öz növbəsində, çoxçeşidli metodların məcmusu kimi çıxış edir. Qeyd edim ki, digər elmlərdə də fənnlərin adı “sistem” və “sistemləşdirmə” baza kateqoriyalarından formalaşdırılır (məsələn, bibliologiya- “sistematika”). Beləliklə, “kitabşünaslıq sistematikası”ndan, “kitab sistematikası”ndan (bibliosistematika) danışmaq olar. Lakin son zamanlar, xüsusilə linqvistika, tarixi mənbəşünaslıq və ədəbiyyatşünaslıqda, “tipologiya” terminindən daha çox istifadə olunur. Kitab- məzmun (sosial informasiya), semoiotika (işarə, dil, ədəbiyyat) və maddi konstruktiv formada sistem-dialektik vəhdət təşkil edən, mədəni-tarixi kökləri olan informasiya ünsiyyətinin mahiyyətini əks etdirən elmi kateqoriyadır. Müasir kitabşünaslıqda kitab tipologiyasının obyekti və predmeti haqqında az-çox aydın təsəvvür formalaşmışdı. Kitab tipologiyasının obyektinə bütün kitabşünaslıq hadisələri, anlayış və münasibətləri (ilk öncə- kitab, kitab işi və kitabşünaslıq) daxildir. Kitab tipologiyasının predmeti isə kitabşünaslıq obyektlərinin, proseslərinin, anlayış və metodlarının sistemləşdirilməsidir [3, 174-176].



Humanitar elmlər- analitik və tənqidi metodlardan istifadə edərək insan həyatının mənəvi, idrak, mədəni, ictimai sahələrdə tələblərini öyrənən elmlər toplusudur. Təbiət elmləri ilə istifadə üsulları (orada emprik üsullardan istifadə edirlər) və predmetinə görə kəskin fərqlənir. Predmetinə və metodologiyasına görə ictimai elmlərlə kəsişsə də onunla da fərqli sahələri vardır. Humanitar elmlərə Antropologiya, Jurnalistika, Mədəniyyətşünaslıq, Tarix, Kulturologiya, Liqvistika, Ədəbiyyatşünaslıq, Elmşünaslıq, Pedaqogika, Politologiya, Hüquq, Psixologiya, Sosiologiya, Filologiya, Fəlsəfə, Esterika, Etika və Etnoqrafiya elmləri daxildir.

Etiraf etmək lazımdır ki, humanitar elm sahələrinin zamanla lazımi səviyyədə ayaqlaşmaması, ictimai-iqtisadi formasiya dəyişikliyinin doğurduğu mənəvi-psixoloji problemlərə, deformasiyalara açıq elmi təhlil və müzakirə kontekstində yanaşmadan konservativcəsinə uzaq olması son 15 ildə özünü qabarıq göstərən problemlərdəndir. Ölkəmiz müstəqilliyinə qovuşduqdan sonra humanitar sahədə çalışan alimlərin müəyyən qismi mürəkkəb ictimai-siyasi, iqtisadi proseslər fonunda yeni dövrün aktual fəlsəfi problemlərinin araşdırılmasına xüsusi maraq göstərməmiş və ya buna istiqamətlənmiş tədqiqatçılıq təşəbbüsləri obyektiv elmi nəticələrin əldə edilməsi baxımından yetərli olmamışdır. Açığı, son illərədək bu problem həm də elmin maliyyələşməsi mexanizmlərinin arzuolunan səviyyədə olmaması ilə şərtlənmişdir. Lakin Azərbaycan büdcəsinin gəlirlərinin əhəmiyyətli dərəcədə artımı ölkə rəhbərliyinə təhsilə, elmə ayrılan vəsaitləri ilbəil yüksəltmək, alimlərin tədqiqatçılıq marağını stimullaşdırmaq istiqamətində ciddi tədbirlər həyata keçirmək imkanı yaratmışdır.

Hazırda Azərbaycan cəmiyyətinin öyrənilməsi ilə bağlı humanitar elmlər üzrə tədqiqatlar, demək olar ki, yox dərəcəsindədir. Həmçinin qeyd edim ki, azərbaycanlı mentalitetinin öyrənilməsi, ictimai fikri formalaşdıran əsas sosial-psixoloji kateqoriyalara həmvətənlərimizin münasibəti, demoqrafik vəziyyət və bir sıra digər amillərin elmi təhlili hazırda respublika üçün xüsusi məna kəsb edir. Biz daim böyük fəxrlə deyirik ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bizə Azərbaycançılıq məfkurəsini bəxş etmişdir. Onun fəlsəfəsi hər birimizə imkan verir ki, o, azərbaycanlı olduğunu qürur hissi ilə desin. Lakin gənc nəslin Azərbaycançılıq ruhunda tərbiyəsi prosesi heç də problemsiz deyildir. Gənclərimizin əsl azərbaycanlı kimi tərbiyəsi bizim vətəndaşlıq borcumuzdur və xalqımızın gələcəyi deməkdir. Müasir dünyada vəzifələrimizin öhdəsindən layiqincə gələ bilməyimiz üçün aidiyyatı elmi qurumlar Azərbaycançılıq məfkurəsinin nəzəri-konseptual əsaslarını işləyib hazırlamalıdırlar. Gənclərimizin milli və müasir ruhda tərbiyəsi məsələləri də həmin fəaliyyət proqramının tərkib hissəsi olmalıdır. Qeyd edim ki, özünəməxsus sanballı elmi məktəbi, güclü kadr potensialı olan Bakı Dövlət Univer-

siteti də flaqman ali təhsil müəssisəsi kimi humanitar elmlərin inkişaf strategiyasının hazırlanmasında yaxından iştirak edir. Humanitar elm sahələrinin köməyi ilə milli ideologiyamız olan Azərbaycançılığın mahiyyətinin gənc nəslə hərtərəfli şəkildə çatdırılması, habelə onlarda milli-mənəvi dəyərlərin, adət-ənənələrin, vətənpərvərlik ruhunun qorunub saxlanılması, düşüncədə millilikIə müasirliyin ən mütərəqqi çalarlarının yer alması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Universitetdə humanitar elm sahələrində dövlətçilik maraqları baxımından aktual və əhəmiyyətli olan mövzular üzrə dissertasiyaların işlənməsinə də xüsusi ciddiliklə yanaşılır. Dissertasiyaların işlənməsi zamanı mütərəqqi milli təcrübə ilə yanaşı, dünyanın müasir inkişaf meyilləri də nəzərə alınır. BDU-nun təcrübəli professor-müəllim heyəti dissertant, aspirant və doktorantlarla işi müasir dövrün tələbləri səviyyəsində quraraq həyata keçirilən elmi-tədqiqat işlərinin keyfiyyət və səmərəlilik baxımından Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə tam cavab verməsinə çalışırlar. Vacib haldır ki, humanitar elmlər müasir dövrün tələblərinə cavab versin. Müstəqil Azərbaycan hazırda inkişafının elə mərhələsindədir ki, mövcud sosial-iqtisadi uğurların davamlılığının təmin edilməsi prosesində əsaslandırılmış elmi qənaətlərə geniş istinad olunmalıdır. Elmin inkişaf təmayüllərinin respublikanın müasir reallıqlarına nəzərən müəyyənləşdirilməsi, bu sahədə mövcud problemlərin həlli, elmlə idarəçiliyin səmərəli vəhdətinin təmini, bu istiqamətə yönəldilən vəsaitlərin rentabelliyinə nail olunması yeni mərhələdə alimlərin qarşısında ciddi vəzifələr kimi dayanır. Konseptual elmi araşdırmaların, dərin müşahidələrin nəticəsi kimi, ilk növbədə, humanitar elmlərin qarşısında duran prioritet vəzifələr müəyyənləşdirilməlidir. Eyni zamanda bu sahədə müşahidə olunan əsas nöqsanlar müəyyən edilməli, müvafiq elmi-tədqiqat institutlarının yeni dövr üçün vəzifələri diqqətə çəkilməli, bununla da ölkənin intellektual kəsimi açıq fikir mübadiləsinə, müzakirələrə dəvət edilməlidir.

Azərbaycan cəmiyyətinin müxtəlif problemləri ilə bağlı çoxsaylı sanballı əsərlər yazılmışdır. Vacib haldır ki, humanitar elmlərin real mənzərəsi konseptual təhlilə cəlb etməklə yanaşı, onların cəmiyyət həyatına fəal nüfuzetmə, təsir imkanlarını da dəyərləndirilməlidir. Habelə yüksək dövlətçilik, vətənpərvərlik və milli-intellektual təəssübkeşlik baxımından bu sahədə müşahidə olunan əsas nöqsanlar göstərilməli, müvafiq elmi-tədqiqat institutlarının yeni dövr üçün vəzifələrini diqqətə çəkməli, bununla da ölkənin intellektual kəsimini açıq fikir mübadiləsinə, müzakirələrə dəvət etmək uyğun olardı. Böyük rezonans doğuran, elmi mühiti yaxşı mənada silkələyən, tezis və prinsiplər əsasında qələmə alınan ayrı-ayrı məqalələr yazılsa cəmiyyətdə Azərbaycan humanitar elminin real vəziyyəti, gerçək potensialı, imkanları ilə bağlı obyektiv təsəvvürün formalaşması baxımından əhəmiyyətli olardı. Vacib haldır ki, bu istiqamətdə yazılmalı elmi məqalələrdə, ilk öncə, hazırda ictimai-fəlsəfi fikrin pozitiv məcrada inkişafında rəhbər rolunu oynayan humanitar elm sahələrinin müasirləşməsi, yeni dünya nizamının gerçəkliklərinə cavab verən elmi inkişaf



prioritetlərinin müəyyənləşdirilməsi obyektiv tələbata çevrilsin. Söhbət, əslində, humanitar elm sahələrində sanballı elmi tədqiqatların olmamasından deyil, mövcud potensialın müasir tələblərə uyğunluğundan və optimal idarə edilməsindən gedir. Humanitar elm sahələri mövcud bədii və ictimai fikir tarixini, ümumən mədəniyyət tarixini faktoloji materialın təsviri metodologiyası, yaxud metodologiyasızlığı ilə deyil, düzgün müəyyənləşdirilmiş milli konsepsiya işığında təqdim etməlidir. Dünya elminə inteqrasiya mərhələsində olduğumuz indiki vaxtda humanitar elmlər sahəsində islahatların başlıca spesifikası müəyyənləşdirilməlidir. Bu elmlər hazırkı fazanın əsas xüsusiyyətlərini araşdırmalı və yeni ideyalar irəli sürməlidir.

**Nəticə.** Hesab edirəm ki, mövcud vəziyyət yenidən elmi əsaslarla dəyərləndirilməlidir. Vəziyyətin neqativ cəhətləri varsa, humanitar elmlərin mövcud durumu bizi, həqiqətən, narahat edirsə, bundan çıxış yolları tapılmalı, tədbirlər planı, yaxud ictimai elmlərin inkişaf strategiyası hazırlanmalıdır. Əgər biz elmi yenidən təşkilatlandırmaq, onu daha səmərəli və operativ şəkildə qurmaq istəyiriksə, bunun ictimai-fəlsəfi bazası olmalıdır. Bu, elmə sadəcə məntiqi bir sistem kimi baxmağın nəticəsi ola bilməz. Bu, elmə sosial sistem kimi baxılmasının nəticəsi olmalı, onun təşkilati formaları araşdırılmalıdır. Ölkəmizdə Elmşünaslıq elmi ciddi surətdə inkişaf etdirilməlidir. Halbuki bu sahə hazırda sıfır vəziyyətindədir. Dünyada 50 ildir ki, elm haqqında elm yaradılıb, elmşünaslıq geniş şəkildə inkişaf etdirilib. Elmin nəzəri əsasları işlənib hazırlanıb. Biz isə hələ indi-indi bu məsələyə münasibət bildirməyə başlamışıq. Bu baxımdan məhz ictimai elmlər önə çəkilib. Elmi fəlsəfə araşdırmalarının qarşısına vəzifə qoyulub ki, elmin özünün optimallaşdırılması üçün humanitar və ictimai elmləri üzrə bu sahənin adamları müvafiq layihələr hazırlasınlar. Birdə təklif edərdim ki, bu sahədə əməkdaşlığın yeni optimal formalarının tapılsın.

Bu gün ölkədə yaranmış ictimai-siyasi və mənəvi mühit bizə humanitar elmlərin yeni şəraitdəki rolunu dəqiqliklə müəyyənləşdirməyə imkan verir. Sürətli sosial-iqtisadi inkişaf, öz növbəsində, humanitar və ictimai elmlər qarşısında yeni vəzifələr irəli sürür, bu sahə üzrə çalışan alimlərin məsuliyyətini xeyli artırır, bu sahədə verilən bütün səmərəli fikir və təkliflərə tam ciddiyyətlə, özünütənqid ruhunda yanaşaraq, onları diqqətə almağı və lazımınca qiymətləndirməyi tələb edir. Əlbəttə, humanitar və ictimai elmlər sahəsində müəyyən nailiyyətlər qazanıldığını inkar etmək olmaz. Lakin alimlərimiz öz qüvvələrini bu günün ən aktual problemlərinin həllinə yönəltməlidirlər. Etiraf etmək lazımdır ki, ictimai elmlərin cəmiyyətimizdəki mövqeyini, bütövlükdə bu elmlərin mövcud vəziyyətini ölkəmizin indiki inkişaf mərhələsinin irəli sürdüyü tələblər baxımından qənaətbəxş hesab etmək olmaz. Onun nüfuzunun yüksək olmamasının səbəbləri nədir? Mənim fikrimcə, başlıca səbəb ictimai biliklərin insanların artan tələbatından, həmçinin cəmiyyətin həyatında baş verən hadisələrin analitik təhlilindən geri qalmasıdır. Ölkədə cərəyan edən proseslərlə müqayisədə humanitar və ictimai elmlərin geri qalması bizim üçün heç də yeni hal deyildir. Hələ 1970-80-ci illərdə ulu öndər Heydər Əliyev respublikamızda

humanitar və ictimai elmlərin nümayəndələrini Azərbaycan reallıqlarına xüsusi həssaslıqla yanaşmağa çağırmış, onların tədqiqatlarına tənqidi yanaşaraq diqqətlərini dəfələrlə belə bir məsələyə yönəltmiş və tələb etmişdi ki, humanitar və ictimai elmlər öz gücünü məhz gerçəkliyin obyektiv təhlilindən almalıdır. O zamankı inkişaf meyillərini və mövcud vəziyyətin təhlilini mücərrəd nəzəriyyəçiliklə əvəz edərək iqtisadi artım tempinin sürətləndirilməsi baxımından ölkəmizin təcrübəsini ümumiləşdirməyə çalışan tanınmış iqtisadçı alimin kitabını ulu öndər Heydər Əliyevin necə kəskin tənqid etdiyini xatırlamaq yerinə düşərdi. Həmin alim köhnəlmiş iqtisadi göstəricilərdən istifadə etdiyinə görə ölkəmizin 1970-ci illərdəki təsərrüfat-iqtisadi həyatı üçün səciyyəvi olan yüksək əmək ritminin real mənzərəsini canlandıra bilməmişdi. Humanitar və ictimai elmlər sahəsində geriliyi, müəyyən mənada spesifik sosial şəraitlə də əlaqələndirmək mümkündür. Belə ki, sosialist dünyagörüşündən imtina edərkən alimlərimiz ictimai elmlər sahəsində yeni yollar axtarmağa da heç hazır deyildilər. İndi ölkənin kitab bazarı müxtəlif məzmunlu çoxsaylı nəşrlərlə dolub daşır. Əli qələm tutan yazır. Nəfis tərtibatla işıq üzü görən bu nəşrlər içərisində sosial-siyasi problemlərin bəsit şərhi ilə bağlı vaxtaşırı səslənən ciddi iradları biz tamamilə haqlı sayırıq. Humanitar və ictimai elmlər üzrə tədqiqatların empirizm və quru təsvirçilik səviyyəsinə enməsi müşahidə olunur və həmin nəşrlərdə faktlar yalnız sadalanır, nəzəri təhlil də yox dərəcəsindədir. Hər bir elmi axtarışda isə əsas prinsip canlı müşahidədən abstrakt təhlilə və ondan praktikaya istiqamətlənməlidir.

Hazırda ölkədə çoxşaxəli islahatlar qlobal inkişafın müasir meyilləri nəzərə alınmaqla həyata keçirilir. Bu, eyni zamanda humanitar elmlər sahəsindəki islahatlara da aiddir. Etiraf etməliyik ki, adı çəkilən sahədə mövcud vəziyyət dövlətimizin yüksək irəliləyiş tempinə uyğun gəlmir. Dünya elminə inteqrasiya mərhələsində olduğumuz indiki vaxtda humanitar elmlər sahəsində islahatların başlıca spesifikası müəyyənləşdirilməlidir. Bu elmlər sahəsi hazırkı fazanın əsas xüsusiyyətlərini araşdırmalı və yeni ideyalar irəli sürməlidir. Dövlətin elm siyasəti milli ideologiya və dövlətçilik tarixi, mədəniyyət və fəlsəfə, politologiya və sosiologiya, mədəniyyətşünaslıq və hüquq sahələrinin verdiyi təklif, konsepsiya və proqramlarla sıx bağlıdır. Humanitar elm sahələri irəliləyərək bizdə bu əlaqələrin dərin surətdə təmin olunmasına gətirib çıxarmalıdır. Güman etmək olar ki, humanitar elmlərin nümayəndələri ölkəmizin dinamik inkişafına öz töhfələrini verəcək və onun regionda həm də güclü elm mərkəzinə çevrilməsi yolunda üzərlərinə düşən vəzifələri az bir vaxtda yerinə yetirmək üçün bütün imkanlarını səfərbər edəcəklər.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**


1. Usubaliyev O. Müasir dövrdə Kitabçılıq işi və onun problemləri // Kitabxanaşünaslıq və Biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal. -Bakı, 2015. №2 (37). səh.85-88.
2. Allahverdiyev B.V. Kitabın tipologiyası (monoqrafiya). -B., ÇapART Nəşriyyat Evi, 2017, 564 səh.
3. Abbasova L.Q. Kitabın növlərə və tiplərə bölünməsini şərtləndirən əlamətlər sisteminin müasir şərhi // Dil və ədəbiyyat: beynəlxalq elmi-nəzəri jurnal. -B., 2006. -N 6 (54). -s.174-176.
4. Беловицкая А.А. Общее книговедение. -М.: Книга, 1987. -255 с.



**Орхан Усубалиев**


**Издание книг по гуманитарным наукам в Азербайджане (2000-2020)**

**Резюме**


*В статье обсуждается развитие книгоиздания в гуманитарных науках в Азербайджане и мои личные предложения и мнения В статье показано становление, становление и развитие книгоиздания по гуманитарным наукам в Азербайджане в 2000-2020 гг. В статье также представлен общий анализ книг и библиографии с точки зрения формы, содержания и структуры.*



***Ключевые слова:*** гуманитарные науки, книгоиздание, типология книги.



**Orxan Usubaliev**


**Publication of books on humanities in Azerbaijan (2000-2020)**


*The article shows the establishment, formation and development of book publishing in the humanities in Azerbaijan in 2000-2020. The article also provides a general analysis of books and bibliography in terms of form, content and structure.*



***Keywords:*** humanities, book publishing, typology of the book

**Rəyçi:** b\m Ə.M.Məmmədov